

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 156 (23.067)

18 avqust 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbul olunması üçün test imtahanları keçiriləcəkdir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün 17 iyul 2018-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanları 24 avqust 2018-ci il tarixdən etibarən keçiriləcəkdir.

Qeyd edək ki, müsabiqəyə 165 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 527 nəfər sənəd təqdim edib. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli 61 nömrəli Qərarına əsasən iştirakçıların dövlət nümunəli təhsil sənədlərinin hüquqiliyinin yoxlanılması məqsədilə onların siyahısı komissiya tərəfindən Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi Publik Hüquqi Şəxsin Naxçıvan Muxtar Respublikası Regional Bölməsinə göndərilib. Yoxlamanın nəticəsində iki namizədin diplomlarının "Tələbə-Məzun" Dövlət Elektron Məlumat Sistemində mövcud olmadığı müəyyən edilib. Bununla da, 525 namizəd test imtahanlarına buraxılıb.

Test imtahanında iştirakçılara ixtisas üzrə 40, metodika və təlim strategiyaları üzrə 25, informasiya texnologiyaları üzrə 15 sual olmaqla, ümumilikdə, 80 sual təqdim ediləcək, sualları cavablandırmaq üçün 120 dəqiqə vaxt veriləcəkdir. Stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 60 faizini (48 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 80 faizini (64 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab ediləcək. İmtahanlarda keçid balını yığmaqla ən yüksək bal toplamış şəxs müvafiq vəzifəyə təyin olunacaqdır.

Məlumat üçün bildirək ki, muxtar respublikada ilk dəfə olaraq müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş qaydada, elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə həyata keçiriləcəkdir. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə test imtahanlarının videoçəkilişi aparılacaqdır. İmtahan bitdikdən dərhal sonra iştirakçılara cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim ediləcək. Nəticələr komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdiriləcəkdir.

İmtahanlar 12 sentyabr 2018-ci il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən kollegiya iclasını nazir Niyazi Novruzov açaraq məruzə edib.***

Bildirib ki, bütün sahələr kimi, səhiyyə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunub. Naxçıvanda ən son yenilikləri özündə əks etdirən avadanlıqlarla təchiz olunmuş tibb ocaqlarının istifadəyə verilməsi davam etdirilir. Cari ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası əsaslı təmir və yenidənqurmadan sonra yeni avadanlıqlarla təchiz edilərək, Şərur rayon Ərəbyengicə kənd həkim ambulatoriyası, Culfa rayon Dizə kənd feldşer-mama məntəqəsi üçün binalar tikilərək istifadəyə verilib. Hazırda Şərur Rayon Uşaq Xəstəxanası, həmçinin İbadulla, Kərimbəyli, Qazançı, Aşağı Buzqov, Dəstə kənd həkim ambulatoriyaları, Kosacan və Yuxarı Buzqov feldşer-mama məntəqələri və Naxçıvan Tibb Kollecinin binalarında yenidənqurma və tikinti işləri davam etdirilir. Yeni istifadəyə verilən müəssisələr istilik sistemi ilə təchiz edilir, payız-qış mövsümünə hazır vəziyyətə gətirilir.

Səhiyyə naziri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində avqustun 4-də 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə payız-qış mövsümündə səhiyyə müəssisələrinin fasiləsiz fəaliyyətlərinin təmin olunması, yaradılan müasir infrastrukturların qorunması və onlardan səmərəli istifadə edilməsi barədə bir sıra tapşırıqlar verilib. Həmin tapşırıqlara uyğun olaraq Səhiyyə Nazirliyi əhaliyə keyfiyyətli xidmət göstərilməsi üçün tibb müəssisələrinin yanacaq və dərman preparatları ilə təminatına nəzarəti gücləndirməli, Fövqəladə Hallar Nazirliyi ilə birlikdə səhiyyə müəssisələrinin elektrik generatorlarının işlək vəziyyətdə olması və fövqəladə hallara hazırlığın səviyyəsi yoxlanılmalı, maarifləndirmə işləri aparılmalıdır.

2018-2019-cu illərin qış mövsümündə 80 tibbi müəssisə fərdi, 109 müəssisə isə mərkəzi istilik sistemləri ilə, 32 müəssisə neft sobası, 6 müəssisənin isə təbii qazla qızdırılacağını deyən nazir onu da qeyd edib ki, qışa hazırlıq məqsədilə bütün elektrik xətləri, transformatorlar, generatorlar, istilik və su xətləri müvafiq qurumlar və müəssisələrin özləri tərəfindən yoxlanılır və çatışmazlıqlar aradan qaldırılır.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın səhiyyə müəssisələrində istilik sistemlərinə nəzarət edənlərin əksəriyyəti müvafiq sertifikatı olanlardır. Digərləri də sertifikat almaq üçün payız-qış mövsümünə qədər müvafiq kurslara cəlb ediləcəklər. Yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilməsi, tibb müəssisələrində elektrik enerjisindən səmərəli istifadə olunması, israfçılığa yol verilməməsi məqsədilə maarifləndirici söhbətlər aparılacaqdır.

Vurğulanıb ki, əvvəllər tikilmiş binalarda yerləşən tibb müəssisələrində qış mövsümündə fasiləsiz iş rejimini qurmaq və vətəndaşlara daha yüksək səhiyyə xidməti göstərmək məqsədilə ehtiyac olan dizel yanacağının, şüşə, şifer və polietilenin miqdarı müəyyənləşdirilib və alınması üçün müraciət olunub.

Səhiyyə naziri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında səhiyyə müəssisələrinin payız-qış mövsümünə hazırlığı ilə bağlı digər tədbirlərin də davam etdirildiyini bildirib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov nazirlikdə payız-qış mövsümünə hazırlıq və qarşıda duran məsələlərin müzakirəsi ilə əlaqədar keçirilən iclası açaraq mövsümlə bağlı görülmüş və görüləcək tədbirlərdən danışıb.***

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində avqustun 4-də 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə payız-qış mövsümündə idman müəssisələrinin fasiləsiz fəaliyyətinin təmin olunması, yaradılan müasir idman infrastrukturlarının qorunması və onlardan səmərəli istifadə edilməsi barədə bir sıra tapşırıqlar verilib.



Vurğulanıb ki, muxtar respublikada idman sahəsi də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə əhatə olunub. Keçirilən müşavirədə verilən tapşırıqlara əsasən nazirlik tərəfindən idman müəssisələrinin fasiləsiz fəaliyyətlərinin təmin olunması, elektrik enerjisi və təbii qazdan qənaətlə istifadə edilməsi, israfçılığa yol verilməməsi, istehlak olunan qaz və enerji haqlarının vaxtında ödənilməsi daim diqqətdə saxlanılmalıdır. Buna görə də nazirliyin strukturuna daxil olan rayon (şəhər) gənclər və idman idarələri, həmçinin idman müəssisə və obyektlərinin, olimpiya-idman komplekslərinin, Uşaq-gənclər idman məktəblərinin üzərinə bir sıra mühüm vəzifələr düşür.

Qeyd edilib ki, 2018-2019-cu illərin payız-qış mövsümündə İlham Əliyev adına Olimpiya-İdman Kompleksi, Şərur Olimpiya-İdman Kompleksi, Naxçıvan Muxtar Respublika Stadionu, İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbi və Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində yeniyetmə və gənclərin idmanla müntəzəm məşğul olması və kütləvi idman tədbirlərinin keçirilməsi üçün istilik, elektrik sistemi və su təchizatına nəzarət gücləndiriləcəkdir. Həmçinin idman müəssisələrində yoluxucu xəstəliklərə qarşı dezinfeksiya işlərinin aparılması və idmançıların tibbi müayinədən keçirilməsi nəzarətdə saxlanılacaqdır.

Vurğulanıb ki, payız-qış mövsümündə elektrik enerjisi, qaz, rabitə və digər xidmətlərdən düzgün istifadə olunması, israfçılığa yol verilməməsi təmin ediləcək. Təsərrüfathesablı idman müəssisələrindən əldə olunmuş gəlirlərdən elektrik enerjisi, qaz xidməti haqlarının ödənilməsində istifadə ediləcək, bu istiqamətdə nöqsanlara yol verilməməsinə ciddi diqqət yetiriləcəkdir.

Payız-qış mövsümünə hazırlıq tədbirlərinin davamı olaraq əsas məsələsi kimi nazirliyin, o cümlədən tabe təşkilatların yerləşdiyi inzibati binaların mühafizəsinə ciddi nəzarət olunacaq. Gözətçilər və ocaqçılar müvafiq olaraq təlimatlandırılacaqlar.

Bildirilib ki, nazirliyin strukturuna daxil olan rayon (şəhər) gənclər və idman idarələrinin yeniyetmə və gənclərin payız-qış mövsümündə də idmanla müntəzəm məşğul olmaları, idman yarışlarında iştirak etmələri üçün yaradılmış şəraitdən düzgün istifadəyə nəzarət artırılacaqdır. Bu dövr ərzində əlaqədar təşkilatlarla əməkdaşlıq möhkəmləndiriləcək, tədbirlərə aidiyyəti təşkilatların nümayəndələri dəvət ediləcəkdir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar kollegiya iclası keçirilib. İclası xidmətin rəisi Vəli Novruzov açaraq məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, xidmət və onun strukturları tərəfindən hər il payız-qış mövsümü ilə əlaqədar olaraq mal-qaranın, ev quşlarının, arı ailələrinin xəstəliklərdən qorunması, zoobaytar qaydalar əsasında yemləndirilməsi, saxlanılma şəraiti və digər tədbirlər barəsində sahibkarlar arasında maarifləndirici söhbətlər təşkil olunur, onlara zəruri məlumat və məsləhətlər verilir.

Vurğulanıb ki, muxtar respublikada quşçuluğun inkişaf etdirilməsi məqsədi ilə bu sahə üzrə fəaliyyət göstərən sahibkarlara müvafiq yerlərdə dezinfeksiya, dezinseksiya işlərinin vaxtında həyata keçirilməsi tövsiyə edilir. Göstərilən dövlət dəstəyi sayəsində



inkişaf edən arıçılıqla məşğul olan sahibkarlara lazımi məlumatlar verilir, arıların kifayət qədər keyfiyyətli yem ehtiyatı ilə təmin olunması, qışlama dövrü açıq havada arı pətəklərinin külək tutmayan yerdə saxlanılması, istifadə olunan alətlərin dezinfeksiya olunması, arı dərmanlarının parazitlərə və infeksiyalara qarşı işlədilmə qaydaları izah edilir. Qeyd olunan tədbirlər bundan sonra da davam etdirilməlidir.

Payız-qış mövsümündə ev heyvanlarının sağlamlığının qorunması, infeksion və parazitar xəstəliklərə yoluxmasının qarşısının alınmasında dezinfeksiya, dezinseksiya və dezakarizasiya tədbirlərinin vaxtında yerinə yetirilməsi əsas vəzifələr kimi qarşıda durur. Dezinfeksiya məqsədilə Zoobaytar Təchizat İdarəsi tərəfindən formalin dezinfeksiya maddəsi gətirilərək şəhər və rayon baytarlıq idarələrinə verilib.

Bildirilib ki, kənd təsərrüfatı heyvanlarının payız-qış mövsümündə müxtəlif xəstəliklərə tutulmasının qarşısının alınmasında peyvəndləmə tədbirlərinin aparılması da əhəmiyyət kəsb edir. Yayılması ehtimal olunan xəstəliklərin qarşısının alınması məqsədilə Zoobaytar Təchizat İdarəsinin anbarlarında lazımi dərman preparatları ehtiyatı saxlanılır. Bundan başqa, əlavə olaraq yeni dərman və vaksinlərin gətirilməsi istiqamətində də işlər davam etdirilir ki, bu da muxtar respublikada payız-qış mövsümü üçün kifayət qədər dərman ehtiyatı yaradılmasına öz müsbət təsirini göstərəcəkdir.

Xidmət rəisi onu da vurğulayıb ki, "Epizootiya əleyhinə tədbirlər planı"na uyğun olaraq payız-qış mövsümünə hazırlıqla əlaqədar iribuynuzlu heyvanlardan müxtəlif yoluxucu xəstəliklərin təyin edilməsi üçün götürülmüş analizlərin laborator yoxlamalarının, həmin xəstəliklərin qarşısının alınması üçün vaksinasiyaların, peyvəndlərin aparılması bundan sonra da davam etdirilməlidir. Dövlət Baytarlıq Xidməti və strukturuna daxil olan rayon və şəhər baytarlıq idarələri sahibkarlarla daha sıx əlaqələr qurmalı, görüşlər keçirməli, maarifləndirici tədbirləri daha da gücləndirməli, tədbirlər planına uyğun olaraq bütün işlər vaxtlı-vaxtında yerinə yetirilməli, baytarlıq məntəqələrinə bölünmüş vaksin və biopreparatlardan təlimata uyğun istifadə edilməlidir.

**Xəbərlər şöbəsi**

### Ordun varsa, yurdun var

# Sən yenilməzsən, iradəlisən, güclüsən, Azərbaycan əsgəri

***"Ordun varsa, yurdun var. Ordun yoxsa, yurdun yox" deyimi müstəqil dövlətimizdə əsası ümummilli lider tərəfindən qoyulan, bu gün də uğurla aparılan məqsədyönlü ordu quruculuğu siyasəti nəticəsində artıq öz təsdiqini tapmış reallıqdır. Nizami ordu, mərd və qorxmaz oğullarımız olmasa, bu gün hər hansı sabitlikdən, tərəqqidən danışmaq mümkün deyil. Bu gün hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilən güclü ordu və bu ordunun sıralarını qüvvətləndirən yenilməz, cəsarətli Azərbaycan əsgəri var.***



Hərbi qulluqçuların görüşünə gedərkən Naxçıvan televiziyasının arxivində saxlanılan və ötən əsrin sonlarında muxtar respublikanın sərhədyanı kəndlərində düşmən tərəfindən edilən həmlələrin kadrlarını xatırlayıram. Naxçıvan o illərdə necə də çətin günlər yaşayırdı. Blokadanın gətirdiyi ağır və məşəqqətli günlər, zülmət qaranlığa qərq olan yaşayış məntəqələri, uzun-uzadı çörək növbələri, ərzaq qıtlığı... Bunların hər birinin öhdəsindən gəlmək olardı, amma daha ağırı o idi ki, mənfur ermənilər muxtar respublikanın kəndlərinə basqın etməklə, faktiki olaraq öz işğal niyyətlərini bir daha ortaya qoyurdular. Naxçıvan və naxçıvanlılar tarixin bu ağır sınağından üzüağ, alnıaçıq çıxdılar. Ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşməklə yumruğu, belə desək, bir nöqtəyə vura bildilər. Doğrudur, o illərdə hansısa güclü ordudan, maddi-texniki təchizatdan söhbət gedə bilməzdi, amma Vətən sevgisi, yurda bağlılıq Vətən oğullarının ən kəsərli silahına çevrildi. Beləcə, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində muxtar respublika düşmən işğalından xilas oldu, ilk milli hərbi parad təşkil edildi, nəticədə, bugünkü güclü, yenilməz Azərbaycan Ordusunun təməl daşları da məhz Naxçıvanda atıldı.

İntibah dövrünün florensiyalı dövlət xadimi Nikolo Makiavellinin "Hökmdar" əsərindən bir fikri oxucularımızla bölüşmək istəyirəm. Müəllif yazır ki, muzdlu qoşunlara güvənən hakimiyyət heç vaxt uzunömürlü ola bilməz. Belə əsgərlər faydasız, təhlükəli, intizamsız və xəyanətkar olurlar. Ən əsası aralarında birlik olmur. Bu fikirlər düşmən orudusunda xidmət edənlər üçün olduqca xarakterikdir. Demoqrafik tənəzzülə uğrayan Ermənistanda gənclərin hərbi xidmətdən boyun qaçırması, hərbi hissələrdə özbaşınalıq, qeyri-döyüş şəraitində həlakolması kimi xəbərləri kütləvi informasiya vasitələrindən, beynəlxalq informasiya agentliklərinin saytlarından mütəmadi izləyirik. Amma Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən birləşmə, bölmə və hissələrində şəxsi heyətin bir şüarı var: Bir nəfər hamı üçün, hamı bir nəfər üçün.

Ötən günlərdə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun düşmənlə təmas xəttində yerləşən bir neçə bölməsində olduq. Zabit Nəsib Nəsibov bizi dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən bölmənin sosial-məişət şəraiti ilə tanış etdi. Məsul zabitin sözlərinə görə, vətənpərvərlik ailədən başlayır. Hər bir ailə övladını Vətənə bağlı, dövlətinə sədaqətli, vətənpərvər gənc kimi yetişdirməlidir. Bu gün hər bir azərbaycanlı ailəsində böyüyən oğlan övladlarına valideyni təlqin edir ki, birinci vəzifə böyüyüb əsgəri xidmətə yollanmaq və bu borcu şərəflə yerinə yetirməkdir. Azərbaycan Ordusuna sonsuz güvənən valideyn övladının xidməti şəraitindən nigaran deyil. Əmindir ki, bütün hərbi hissələrdə, həmçinin ön xətdəki bölmələrdə yüksək sosial-məişət şəraiti yaradılıb. Bu il yüz yaşını qürurla qeyd edən ordumuz heç vaxt indiki kimi güclü olmamışdı. Əgər ötən əsrin 90-cı illərinin əvvəllərində bizim bugünkü kimi iqtisadi qüdrətə malik dövlətimiz və nizami ordumuz olsaydı, torpaqlarımız heç zaman işğal edilməyəcəkdi. Sevindirici haldır ki, ötən illər ərzində Azərbaycan Silahlı Qüvvələrinin silah arsenalı gücləndirildi, hər il hərbi xərclərin həcmi artırıldı, ən əsası şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyəti gücləndirildi. Keçirilən hərbi hazırlıq dərslərində, təlimlərdə uğurla çıxış edən şəxsi heyət peşəkarlığını artırdı. Necə deyərlər, təlimdə tər, döyüşdə zəfər. Beləcə, müstəqillik illərində hərbi güc ölkəmizin xeyrinə dəyişdi, eləcə də Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın hüdudlarında düşmənin qorxulu kabusuna çevrilə bildi. Bu ilin may ayında Günnüt zəfərini əldə etməklə hərb tariximizə yeni bir Qələbə səhifəsi yazıldı.



Əsgərlərlə görüşüb söhbətləşirik. Onlar ölkəmizin və muxtar respublikamızın müxtəlif yerlərindən həqiqi hərbi xidmətə çağırılsalar da, bir amal, məqsəd uğrunda mübarizə aparırlar: qoynunda göz açdıqları Vətən torpağının təhlükəsizliyini, tərəqqisini, sabitliyini təmin etmək. Ön xətdə xidmət etməklə daha da mətinləşən əsgərlərimiz alınmaz qalanın səngərlərində düşmən tərəfini müşahidə etməklə diqqəti əldən vermirlər. Onlardan biri də Quba rayonundan hərbi xidmətə çağırılan Ağasəlim Ağayevdir. Həmsöhbətim deyir ki, hərbi xidmət digərləri kimi, mənə də mətinlik, dözümlülük və möhkəm intizam öyrədib. Yaxşı xatirimdədir, atam hərbi andı qəbul etdiyim gün dəyərli məsləhət verərək dedi: "Oğul, Vətəni göz bəbəyi kimi qoruyun". Vətənin sabitliyi bizə əmanət olunub və biz də hərbi qulluqçular üçün yaradılan şəraitdən istifadə edib xidməti nümunəvi təşkil edirik. Mövqelərdə sayıqlıqla keşik çəkirik. Biz həm hərbi hazırlığımız, silahlanma, həm də mənəvi-psixoloji cəhətdən düşməndən qat-qat güclüyük. Çünki durduğumuz yer, eləcə də qarşıdakı ərazilər də əzəli Azərbaycan torpaqlarıdır.

Babək rayonundan olan İbrahim Babayev bir neçə ay sonra hərbi xidməti başa vuracaq. Azərbaycan Ordusunun əsgəri olmaqdan qürur duyduğunu bildirən müsahibim deyir ki, qışın sazağında, yayın istisində çiyin-çiyinə dayandığım döyüş yoldaşlarımı heç vaxt unuda bilmərəm. Hərbi xidmət dövrü dost, sirdaş olmağı öyrəndik. Bizi bağlayan ülfət Vətən sevgisidir. Onu da deyim ki, həqiqi hərbi xidmətim başa çatdıqdan sonra yenə də bir hərbçi kimi Vətənin keşiyində dayanmaq arzusundayam. Çalışacağam ki, arzumun dalınca gedim və gizir hərbi rütbəsini alaraq Vətənə xidmət edim.



***Belə bir deyim var ki, ordu xalqın övladıdır. Müstəqil ölkəmizin təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimiz bu gün həm dövlət, həm də xalqın qayğısı ilə əhatə olunub. Xalq-ordu birliyi isə onu yenilməz, qüdrətli edir.***

**Muxtar RZAZADƏ**
*"Şərqin səhəri" qəzetinin redaktoru*

# Hər bir hərbçi ailəsi dövlətin qayğısını üzərində hiss edir

*Muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrdə xidmət edən hərbi qulluqçuların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. İstər Naxçıvan şəhərində, istərsə də ən ucqar sərhəd bölgəsində xidmət edən əsgər və zabitlər lazımi sosial-məişət şəraiti ilə təmin olunurlar. Hər il yeni xidməti yaşayış binaları tikilir, zabit-gizir ailələrinə mənzillər verilir. Hərbçi ailələrinin rahat yaşayışı, problemlərinin həlli isə imkan verir ki, onlar nümunəvi hərbi xidmət göstərsinlər.*

Ucqar dağ kəndlərində hərbçilər üçün tikilən yeni evlər, burada yaradılan hərtərəfli şərait onların düşmənin biraddımlığında ailələri ilə birgə yaşamalarına imkan verir.

Bu günlərdə Sədərək rayonunda yerləşən "N" hərbi hissənin şəhərçiyində yaşayan hərbçi ailələri ilə görüşüb onların həyat şəraiti ilə tanış olmaq qərarına gəldik. Bu məqsədlə həmin ünvana yollandıq. Goranboy rayonunun Faxralı kəndindən olan Jalə Yəhyazadə ilə həmsöhbət olduq. O dedi:

– Hərbçi ailəsi olmaq... Bu ifadə başqaları üçün sadə səslənsə də, mənim üçün bir o qədər məsuliyyət deməkdir. Çünki bu çətin, çətin olduğu qədər də şərəfli yolun yolçularından biri də mənəm. Bu məsuliyyətli adı 5 ildir, daşıyıram. Bu gün mənim kimi yüzlərlə qadın var ki, onlar sərhəd bölgəsində də öz həyat yoldaşlarının arxasında dayanıb, onların bu çətin peşələrinin ağırlığını bir az da olsa, yüngülləşdirməyə çalışırlar. İki övladım var, burada bizim yaxşı yaşamağımız üçün hər cür şərait yaradılıb. Məktəbimiz də, uşaq bağçası da müasir səviyyədə qurulub.

Jalə xanım onu da deyir ki, onlar Naxçıvanın müxtəlif bölgələrində olublar. Həmin bölgələrdə də ailələrinin mənzil-məişət şəraiti çox yaxşı idi. Harada olursan ol, istər şəhər mərkəzində, istər sərhəd bölgəsində insan yenə eyni həyəcanı keçirir. Həyat yoldaşım bəzən saatlarla, bəzənsə günlər və həftələrlə evinə gələ bilməsə də, biz evimizdə gecələr rahat yatırıq. Çünki bilirik ki, sərhədlərimiz etibarlı şəkildə qorunur. Sədərək rayonunda istər təhsil, istərsə də səhiyyə müasir formada qurulub və bütün bunlar bizim sakit və firavan yaşamağımıza şərait yaradır. Bu bölgənin sakinləri o qədər səmimi və mehribandırlar ki, mən özümü doğma kəndimdəki kimi hiss edirəm. Sədərək mənim üçün o qədər əzizdir ki, sanki burada doğulub, böyümüşəm.

Sumqayıt şəhər sakini Arzu Əhmədova isə 2 ildir ki, ailə qurub, bir övladı var. Onlar Culfa rayonundan sonra xidməti zərurətlə əlaqədar Sədərəyə köçürülüblər. Burada ikiotaqlı xidməti mənzillə təmin olunublar. Onun dedikləri:

– Vətəni qoruyan, sadiq, inamlı, hərbçi yoldaşı olmağı seçən qadın daim fövqəladə vəziyyətlərə hazır olmalıdır. Əlbəttə ki, bu, vətənpərvərlik, həm də dözüm və səbir tələb edir. Gecəli-gündüzlü Vətənin keşiyində ayıq-sayıq dayanan bir zabitin ömür-gün yoldaşı olmaq çətin də olsa, çox şərəflidir. Biz öz həyətimizdən düşmən postlarını görürük, onlar çox yaxındadır. Amma heç vaxt qorxmuruq, çünki bizim qüdrətli ordumuz var, əsgərlərimiz Vətənimizi inamla qoruyurlar.

Arzu xanım onu da vurğulayır ki, ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət göstərilməklə yanaşı, zabit ailələrinin mənzil-məişət şəraiti də yaxşılaşdırılır, yeni yaşayış binaları tikilir, mövcud yaşayış binaları yenidən qurulur, qüsursuz xidmət edən hərbi qulluqçulara mənzillər verilir. Vətənə ləyaqətlə xidmət edən əsgər və zabitlər daim diqqətdə saxlanılır. Bütün bunlar hər birimizdə qürur hissi ilə bərabər, əminlik yaradır. Tarixboyu alınmaz qala olan Naxçıvanın etibarlı müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Ordu düşmənin qorxulu kabusuna çevrilib. Azərbaycan Ordusu öz gücünü təkcə düşmənə yox, bütün dünyaya göstərir. Mən və mənim kimi hərbçi ailələri, övladlarımız bundan böyük qürur duyuruq.

Gördüklərim bir daha onu deməyə əsas verir ki, muxtar respublikamızda zabit ailələrinin rahat yaşaması, hərbçilərimizin xidmətlərinin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılıb. Hər bir hərbçi ailəsi dövlətin qayğısını öz üzərində hiss edir. Ermənilərlə sərhəddə, düşmənə gözdağı olan bu yaşayış məntəqəsinin bütün sakinləri kimi, zabit və gizir ailələri də həyata nikbin baxırlar. Çünki bizim güclü ordumuz, insan amilini başlıca meyar götürən qüdrətli dövlətimiz, Vətənə sonsuz sevgimiz var.

**✍ Ramiyyə ƏKBƏROVA**

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin 2018-ci il üçün iş planına uyğun olaraq "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində "Mebel fabriklərində baş verə biləcək yanğınların qarşısının alınması və söndürülməsi işinin təşkili" mövzusunda taktiki-xüsusi təlim keçirilib.***

# Taktiki-xüsusi təlim keçirilib





Təlimin keçirilməsinin məqsədi fabrikin fövqəladə hallara hazırlıq vəziyyətinin yoxlanılması, istehsal sahələrinin dayanıqlı fəaliyyətinin təmin edilməsi, fövqəladə hallarda işçilərin və maddi vəsaitlərin yanğından mühafizəsinin təşkili üzrə rəhbər heyətin və mülki müdafiə qüvvələrinin praktik bacarıqlarının təkmilləşdirilməsidir. Bununla yanaşı, Fövqəladə Hallar Nazirliyi və digər icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqə də fabrikdə şərti baş vermiş yanğınların söndürülməsinin təşkili də qarşıya qoyulan əsas məqsədlərdəndir.

Təlim mebel fabrikində mövcud olan ilkin yanğınsöndürmə avadanlıqlarının və mühafizə vasitələrinin tətbiqi ilə 7 tədris yerində həyata keçirilib.

İki mərhələdən ibarət təlim zamanı fabrikin rəhbər heyətinin yarana biləcək situasiyanı qiymətləndirmək və qərar qəbul etmək bacarığı təkmilləşdirilib, nazirliyin ***"112"*** və ***"101"*** xidmətləri ilə qarşılıqlı əlaqədə yanğınlara çevik reaksiya verilməsi üsulları məşq etdirilib.

Təlimə "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətinin 51 nəfərdən ibarət mülki müdafiə qüvvələri, "Zil-130" markalı yanğınsöndürmə avtomobili, idarəetmə və rabitə vasitələri, həmçinin Fövqəladə Hallar Nazirliyinin Naxçıvan şəhər və Babək Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin hər birindən 1 ədəd "Kamaz" markalı yanğınsöndürmə avtomobili və ümumilikdə, 14 nəfər yanğınsöndürən cəlb olunub. Təlim uğurla, təhlükəsizlik qaydalarına tam əməl edilməklə başa çatdırılıb və qarşıya qoyulmuş məqsədlərə nail olunub.

Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov təlimdən sonrakı çıxışında qeyd edib ki, şəxsi heyətin döyüş, peşə və fiziki hazırlığının artırılması baxımından muxtar respublikanın bütün strateji əhəmiyyətli obyektlərində bu kimi təlimlərin keçirilməsi davam etdiriləcək, müəssisələrin fövqəladə hallara hazırlığı diqqət mərkəzində saxlanılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası bu kateqoriyadan olan uşaqların təhsilə cəlbinin davamlılığını təmin etməklə yanaşı, onların inklüziv və distant təhsil imkanlarının genişlənməsinə və cəmiyyətə inteqrasiyasına da əlverişli şərait yaradıb.*



*Dövlət proqramı necə icra olunur?*

## Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası diqqət mərkəzindədir

2018-ci ilin birinci yarısında da dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası istiqamətində bir sıra işlər görülüb. Belə ki, muxtar respublikada məktəbəqədəryaşlı sağlamlıq imkanları məhdud uşaqlar barəsində yaradılmış məlumat bazası daim yenilənir. Hazırda bu yaş kateqoriyasına aid olan sağlamlıq imkanları məhdud uşaqların sayı 371 nəfərdir. 2017-2018-ci tədris ilində onlardan 43-ü məktəbəqədər təhsil müəssisələrinə, 12-si Naxçıvan şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə, 7-si ümumtəhsil məktəblərində fəaliyyət göstərən məktəbəqədər hazırlıq qruplarına, nitq qüsuru olan 120 uşaq isə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölmələrində tədrisə cəlb edilib.





Bununla yanaşı, mərkəzin Defektoloji bölməsinin və psixoloji dəstək xidmətinin mütəxəssisləri uşaqlarla fərdi qaydada reabilitasiyayönümlü məşğələlər aparıb, mərkəzin təlim-tərbiyə üzrə mütəxəssisləri üçün maarifləndirici təlimlər keçirilib.





Sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil müəssisələrinə cəlbi də diqqətdə saxlanılıb. Belə ki, 2017-2018-ci tədris ilinin əvvəlində 88 uşaq ümumtəhsil məktəblərinin birinci siniflərinə cəlb olunub. Bununla ümumtəhsil məktəblərində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların sayı, ümumilikdə, 932, görmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi ibtidai məktəbdə isə onların sayı 7 nəfərə çatıb. Muxtar respublikanın ümumtəhsil müəssisələrində fiziki imkanları məhdud uşaqların inklüziv tədrisə cəlbi, məktəb mühitinə tədricən uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına şərait yaradılıb. Belə uşaqlardan 74-ü əlaçı kimi qeydiyyata alınıb.

Ötən tədris ili ərzində müvafiq kateqoriyalı 282 uşaq məktəbli və qış geyimləri, məktəb ləvazimatları ilə təmin olunublar.

Təhsilə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları tərəfindən maarifləndirici görüşlər keçirilib.

2017-2018-ci tədris ilinin əvvəlində əqli və fiziki imkanları ümumtəhsil müəssisələrində təhsil almağa imkan verən, lakin hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən təhsil ala bilməyən sağlamlıq imkanları məhdud 2 uşaq distant tədrisin 1-ci sinfinə qəbul edilib. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə qabiliyyəti məhdud 7 nəfərin tədrisi davam etdirilib.

Qeyd olunan dövr ərzində adıçəkilən mərkəzdə psixoloji dəstək xidmətinin fəaliyyəti davam etdirilib, müraciət edən hər bir uşaqla bağlı konsultasiya işi aparılıb, onlar üçün fərdi proqram hazırlanıb, müvafiq reabilitasiya xidmətlərinə cəlb olunub. İlk yarımil ərzində psixoloji dəstək xidmətindən 37 uşaq yararlanıb.

Mərkəzin təlim-bərpa otağında diqqət zəifliyi və hiperaktivliyi olan uşaqlar üçün keçirilən məşğələlərə 9 uşaq cəlb edilib.

Mərkəzdə 10 uşağın təhsil aldığı art terapiya kursları da təşkil olunub. İlk yarım il ərzində defektoloji xidmətin Şərur və Ordubad şəhərlərindəki bölmələrinin fəaliyyəti davam etdirilib, məşğələlərə 58 uşaq cəlb olunub. Mərkəzin Defektoloji bölməsinin və psixoloji dəstək xidmətinin mütəxəssisləri iş təcrübəsini artırmaq məqsədilə Bakı şəhərinə ixtisasartırma kurslarına göndəriliblər.



Sağlamlıq imkanları məhdud uşaqların peşə təhsilinə cəlb edilməsi də diqqətdə saxlanılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan 1159 şagirdə peşəyönümü məşğələlər keçirilib, əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilib. 2017-2018-ci tədris ilinin əvvəlində muxtar respublikada fəaliyyət göstərən kolleclərə, ümumilikdə, 11 sağlamlıq imkanı məhdud uşaq qəbul olunub.

2018-ci ilin birinci yarısında Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 150 uşağın müalicəsi təşkil edilib, 40 uşağa protez-ortopedik xidmət göstərilib, 14 uşaq texniki reabilitasiya vasitələrilə təmin olunub, 12 uşağın isə ölkə daxilində müalicəsinə köməklik göstərilib.

Sağlamlıq imkanları məhdud uşaqların məktəbdənkənar müəssisələrə cəlb olunması istiqamətində işlər davam etdirilib, 24 uşaq musiqi məktəblərinin 1-ci siniflərinə qəbul olunub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təsdiq edilmiş qrafikə uyğun olaraq tətil günlərində sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə bir sıra tədbirlərin, o cümlədən tarixi abidələrə və muzeylərə ekskursiyaların təşkili, yarış və müsabiqələrin keçirilməsi, film və tamaşaların nümayişi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq “Yay məktəbi” çərçivəsində sağlamlıq imkanları məhdud 39 uşağın 3-6 iyul tarixlərində Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilib, burada müxtəlifməzmunlu müsabiqələr və idman yarışları keçirilib.

Bütün bu görülən tədbirlərə paralel olaraq muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin tibbi reabilitasiyası və cəmiyyətə inteqrasiyası ilə də bağlı ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqlar alınıb, sağlamlıq imkanları məhdud uşaqlar üçün uyğunlaşdırılmış əyləncəli oyun sahəsi istifadəyə verilib.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxanaların zənginləşdirilməsi istiqamətində də işlər davam etdirilib. İlk yarım il ərzində audiokitabxana fonduna 54 yeni audioəsər əlavə edilib. Hazırda audiokitabxana fondunda 1365, elektron kitabxana fondunda 773, brayl kitabxana fondunda isə 978 kitab mövcuddur. Görmə məhdudiyyətli şəxslər üçün “Könül işığı” adlı aylıq brayl jurnalının, habelə uşaqlar üçün “Şəfəq” adlı xüsusi nəşrlərin nömrələri audiokitabxananın kataloqu da daxil edilib.

Qeyd olunanlarla yanaşı, Novruz bayramı və 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində müvafiq kateqoriyalı uşaqlar üçün bayram tədbirləri təşkil edilib. Bir qrup uşaq uyğunlaşdırılmış əyləncəli oyun sahəsində quraşdırılmış attraksionlara cəlb edilib, onlar arasında asfalt üzərində rəsm və bilik müsabiqələri keçirilib, uşaqlar üçün tamaşalar nümayiş olunub.

Cari ilin birinci yarısında sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası istiqamətində müvafiq kateqoriyalı uşaqlar arasında mütaliə yarışı, həmçinin Rəssamlar Birliyi tərəfindən art terapiya kursunda ustad dərsi keçirilib.

Dövlət proqramının icrasına uyğun olaraq Ordubad şəhər 3 nömrəli, Culfa şəhər 3 nömrəli və Kəngərli rayonun Xok kənd tam orta məktəblərində maarifləndirici görüşlər keçirilib. Bu tədbirlərdə sağlamlıq imkanları məhdud uşaqların valideynləri, həmin kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlər və məktəb psixoloqları iştirak ediblər. Həmçinin 2 aprel – Ümumdünya Autizm Haqqında Məlumatlandırma Günü münasibətilə autizm sindromlu uşaqların valideynləri ilə də maarifləndirici görüş keçirilib.

Məhdud fiziki imkanlı uşaqların idman qruplarına cəlbi və onların cəmiyyətə inteqrasiyası məqsədilə cari ildə muxtar respublikanın rayonlarında boccia bölmələri yaradılıb, məşqçi-müəllimlər müəyyənləşdirilib. Muxtar respublikada boccia üzrə məşqçilərin bacarıqlarını daha da artırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının dəvəti ilə Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia üzrə milli komandasının baş məşqçisi, Azərbaycan Boccia İdman Federasiyasının katibi və məşqçilər heyəti muxtar respublikaya dəvət olunublar. 6 gün ərzində təlim-məşqlər keçirilib, yarışların təşkili, idmançıların hazırlanması üçün məşqçilərə təlimatlar verilib. Qeyd olunanlarla yanaşı, ilin ilk altı ayı ərzində müvafiq kateqoriyadan olan uşaqlar arasında boccia və əyləncəli idman oyunları üzrə yarışlar keçirilib.

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında Sağlamlıq İmkanları Məhdud Uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrasını bundan sonra da diqqətdə saxlayacaq, bu istiqamətdə aidiyyəti orqanlarla birgə müvafiq tədbirlərin təşkilinə nəzarəti gücləndirəcək.*

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Gənclərin növbəti “Yay məktəbi” təşkil edilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Gənclər və İdman, Mədəniyyət nazirlikləri, Gənclər Fondu, Naxçıvan Musiqi Kolleci, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı tərəfindən Ağbulaq İstirahət Mərkəzində gənclərin növbəti “Yay məktəbi” təşkil olunub.*



Məktəbin növbəti iştirakçıları – Naxçıvan Musiqi Kollecinin fəal tələbələri əvvəlcə “Xəmsə”, “Axtar, tap”, “Xəzinənin axtarışı” və “Oxunması zəruri olan kitablar” əsasında hazırlanan “Nə? Harada? Nə zaman?” intellektual oyunları ilə öz biliklərini sınayıb, voleybol, futbol və stolüstü idman oyunları oynayıblar. Gənclər “Girdab” bədii filminə, “Dahi şəxsiyyət” və aprel döyüşlərindən bəhs edən sənədli filmlərə baxıblar. Onların “Şəfa” bulağına və Ağbulaq kəndi ərazisinə gəzintisi də təşkil edilib. Şahbuz Rayon Mədəniyyət Şöbəsinin kollektivi gənclər qarşısında maraqlı konsert proqramı ilə çıxış edib.

“Yay məktəbi”ndə fotomüsabiqədə və keçirilən yarışlarda qalib olan iştirakçılar fəxri fərmanlarla mükafatlandırılıb, Gənclər və İdman Nazirliyinin keçirdiyi tədbirlərdə fəal iştirak etmiş gənclərə sertifikatlar təqdim edilib.

İştirakçıların istirahət müddəti ərzində sağlamlıqlarının qorunması və ilkin tibbi yardımın göstərilməsi məqsədilə onları bir həkim müşayiət edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Qanlıgöl yaylağında tibbi xidmət göstərilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə göstərilən səhiyyə xidməti davam etdirilir. Növbəti belə tibbi xidmət Qanlıgöl yaylağında müvəqqəti məskunlaşanlar üçün təşkil edilib.

Şahbuz rayonunun təbii-iqlim şəraiti, təmiz havası geniş və zəngin otlaq sahələri heyvandarlıqla məşğul olmaq üçün münbit şərait yaradır. Ərazidəki yaylaqlarda təkcə yerli fermerlər deyil, həmçinin muxtar respublikanın digər bölgələrindən gələn təsərrüfat sahibləri də ailəliklə oba qurub heyvandarlıqla məşğul olurlar. Onların sağlamlıqları daim diqqət mərkəzində saxlanılır. Şərur Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası ərazidəki Qanlıgöl yaylağında olub. Burada, əsasən, Şərur rayonunun Xanlıqlar və Kəngərli rayonunun Qarabağlar kəndlərindən gəlmiş heyvandarlar məskunlaşıblar. Həkim briqadası 3 çadırda məskunlaşan 13 nəfəri profilaktik tibbi müayinələrdən keçirib. Heyvandarlar göstərilən tibbi xidmətə görə minnətdarlıqlarını bildiriblər.

Yaylaq sakinlərinə yay aylarında yoluxa bilən xəstəliklər, qida zəhərlənmələri, həşərat və ilan sancmaları zamanı göstərilən ilk tibbi yardımlar barədə də məlumatlar verilib.

Obalarda tibbi xidmət mövsüm boyu davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Qədim tariximiz, milli-mənəvi və dini dəyərlərimiz təsviri sənətdə də yaşadılır

*Naxçıvan qədim tarixi, maddi-mədəniyyət nümunələri ilə hər zaman seçilib. Burada yaşı minilliklərlə ölçülən türbələr, məscidlər, mədrəsələr, imamzadələr və digər türk-islam abidələri canlı salnamə kimi tarixdə öz izini qoruyub saxlayır. Hazırda 1162 tarix-mədəniyyət abidəsinin mövcud olduğu qədim diyarımızda bu abidələrin 58-i dünya, 455-i ölkə, 649-u isə yerli əhəmiyyətlidir. Bu tarixi irs nümunələrinin özəlliyi onların həm maddi-mənəvi, həm də dini inanc baxımından müqəddəs dəyərlərə bağlı olmasındadır. 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olan Naxçıvanın qədim memarlıq ənənələri məhz bu səciyyəvi xüsusiyyətlərinə görə bura gələn qonaqların diqqətini cəlb edir. Digər tərəfdən də islami dəyərlərin qorunub saxlanıldığı tarixi-mədəni abidələr təsviri sənətə də yol taparaq tariximizin şəkillərdə, rəsm əsərlərində əbədiləşdirilməsinə gətirib çıxarır.*


Olqa Eren
Qazaxıstan


Nilufər İnaltong
Türkiyə

Tədqiqatlar göstərir ki, incəsənətin əsas növlərindən biri sayılan təsviri sənət qədim Naxçıvanda miladdan əvvəl IV-I minilliklərdə formalaşıb, inkişaf edib. Qayaların, bədii keramikanın və tunc məmulatlarının, eləcə də müxtəlif minerallardan hazırlanan bəzək əşyalarının üzərində həyatla bağlı olan, real və simvolik məna kəsb edən maraqlı rəsmlər, işarələr, damğalar həkk edilib. Gəmiqaya petroqliflərinin analoji abidələrlə müqayisəli təhlili qədim Azərbaycan təsviri sənətinin bir hissəsinin Naxçıvan mədəniyyətinə aid olduğunu göstərir.

Naxçıvanda elm, mədəniyyətin təşəkkülü, sülh və mərhəmət dini olan İslamın yayılması bu diyarı orta əsrlərdə İslam mədəniyyətinin əsas mərkəzlərindən birinə çevirib. "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Gəmiqaya rəsmləri, Naxçıvanqala, Nuh, Qarabağlar, Yusif Küseyir oğlu, Mömünə xatın türbələri, Əlincəqala və digər abidələr minilliklərin sənətkarlıq xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini, dövrün mədəni mühitini bu günə daşıyıb.

Bu dəyərlərin qorunub yaşadılmasında və gələcək nəsillərə çatdırılmasında Naxçıvanda fəaliyyət göstərən rəssamların, eləcə də qədimliyin və müasirliyin vəhdətini özündə birləşdirən bu gözəl diyara heyran qalan əcnəbi rəssamların çəkdikləri təsviri sənət əsərləri də mühüm rol oynayır.

Qədim diyarda İslama verilən qiymət rəsm sərgilərinin, beynəlxalq rəsm festivallarının keçirilməsində də öz aydın təzahürünü tapmaqdadır. Bütün bunlar, ilk növbədə, mədəniyyətimizi təbliğ etmək, muxtar respublikamızı, dinimizi, milli-mənəvi dəyərlərimizi dünyada tanıtmaq, maddi-mədəniyyət nümunələrimizi, tarixi abidələrimizi rəssam fırçası ilə yenidən canlandırmaq işində də mühüm rol oynayır. Bu istiqamətdə keçirilən tədbirlər cari ildə də davam etdirilib. Həmin tədbirlərdən bir neçəsinin adını çəkmək yerinə düşər.


Cabbar Nazari
İran


Yuliya Suxovetskaya
Rusiya

Bu il iyulun 6-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikanın Mədəniyyət Nazirliyi və Rəssamlar Birliyinin birgə keçirdikləri "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" mədəniyyət ilinə həsr olunmuş görkəmli ebru ustası, Hikmet Barutcugilin əsərlərindən ibarət "Allahın gözəl adları" adlı fərdi yaradıcılıq sərgisində rəssamın 47 ebru üzərində xəttatlıq sənətinin ahəngdar nümunələri sərgilənib. Belə bir əlamətdar ildə türk-islam mədəniyyətinin dərinməzmunlu nümunələrindən olan ebru sənətinə aid sərginin təşkili ictimaiyyət tərəfindən İslam mədəniyyəti ilə səsləşən mühüm mədəniyyət hadisəsi kimi dəyərləndirilib.

Elmin, mədəniyyətin, incəsənətin yüksək qiymətləndirildiyi Naxçıvanda islami dəyərlərin təsviri sənətin müxtəlif növlərində işlənməsi dinimizə, dəyərlərimizə müxtəlif baxış bucağından baxmağa, dünyagörüşümüzü artırmağa, müqəddəs dinimiz və qədim diyarımız haqqında daha ətraflı məlumatlar əldə etməyə geniş imkanlar açır. Bu məqsədlə iyunun 22-də Bəhruz Kəngərli adına Sərgi Salonunda təşkil edilən "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtıdır" adlı sərgidə 21 rəssamın taxta üzərində yandırma, rəngkarlıq, qrafika, qobelen, xəttatlıq, daş heykəl və digər üsullarda 50-dən çox əsəri nümayiş olunub. Bu sənət əsərləri içərisində Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın "Həcc ziyarəti", Qəhrəman Tağıyevin "Möminə xatın", Cavid İsmayılovun "Atabəylər paytaxtı Naxçıvan", Sabir Məmmədovun "Qarabağlar türbəsi", Səyyad Bayramovun "Nuh türbəsi" və digər rəsm əsərləri xüsusi maraqla qarşılanıb. Həmin əsərlər qədim tarixi abidələr diyarı olan Naxçıvanı tərənnüm etməklə yanaşı, burada yaşayan əhalinin həyat şəraitini, məişətini, inanclarını də özündə birləşdirir. Rəsm qalereyasında saxlanılan bu rəsmlər tariximizin gələcək nəsillərə çatdırılması işində mühüm rol oynayacaq.

Bu ilin ən əhəmiyyətli, yaddaqalan hadisəsi isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 aprel tarixli Sərəncamına əsasən "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə keçirilən "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalı oldu.

Bu festivalın yüksək səviyyədə təşkil olunması bir daha göstərdi ki, muxtar respublikamızda təsviri incəsənətə daim diqqət və qayğı ilə yanaşılır. Qədim diyarımızın zəngin tarixi və bu günü ilə səsləşən mühüm mədəniyyət tədbirində Türkiyə, İran, Gürcüstan, Qazaxıstan, Ukrayna, Rusiya, Finlandiya, Sloveniya, Misir, Polşa və digər xarici ölkələrdən 35 rəssam, ölkəmizdən və onun Naxçıvan Muxtar Respublikasından isə 28 rəssam iştirak etdi. Naxçıvanın tarixinin, mədəniyyətinin tərənnüm olunduğu 65 rəsm əsəri hazırda Naxçıvan Dövlət Rəsm Qalereyasında nümayiş olunur.

Rəsm əsərləri içərisində iranlı rəssam Səid Əyyaminin "Qarabağ", polşalı rəssam Katya Sokolova Zizakın "Haçadağ", qazaxıstanlı rəssam Olqa Erenin "Naxçıvan", sloveniyalı rəssam Nik Anikisin "Haçadağın tarixi", azərbaycanlı gənc rəssam Bəhruz Kəngərlinin "Naxçıvan əfsanəsi", Telman Abdinovun "Tarixi qoruyaq", Əli Səfərovun "Etüd", Qəhrəman Tağıyevin "İslam Mədəniyyətinin Paytaxtı", İrina Eldarovanın "Nuh əfsanəsi", Lela Geleişvilinin "Möminə xatın", Murad Babayevin "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı", Nilüfer İnaltongun "Haçadağ", Sami Syabinin "İslama doğru", Birsen Çekenin "Qarabağlar türbəsi" və digər əsərlər rəssamların zəngin təxəyyülünü və peşəkarlığını göstərməklə yanaşı, həm də bu qədim diyarda islami dəyərlərə bağlılığın nə qədər gülcü olmasının, zəngin maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasının bariz nümunəsidir.

*Bütün bunlar isə bir daha onu təsdiq edir ki, bu gün ümummilli lider Heydər Əliyevin mədəniyyət və incəsənət sahəsində əsasını qoyduğu ənənələr muxtar respublikada layiqincə davam etdirilir, yaradıcı şəxslərə dəstək verilir, zəngin keçmişə malik olan rəssamlıq məktəbinin qorunması, istedadlı gənc rəssamların üzə çıxarılması və onların bu sənəti daha dərindən öyrənmələri diqqətdə saxlanılır. Qədim diyarımızda keçirilən beynəlxalq mədəni kütləvi tədbirlər də Naxçıvanda müasir rəssamlıq məktəbinin sənətkarlıq baxımından daha da inkişaf etməsinə gələcəkdə də öz töhfəsini verəcək.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Batil inanclar həyatımızı idarə edirmi?

Dünya binə olandan bəri insanlar müxtəlif qüvvələrin qeyri-adi gücünə ümid edib, baş verən təsadüfi hadisələrə fərqli mənalar veriblər. Bəzi inanclar ortaya çıxdıqca insanların onlara inamı da çoxalıb. Kimisi dağdağan ağacına, kimisi də adi soyuq daşa ümid edib. Müasir dövrümüzdə elm və texnologiya nə qədər inkişaf etsə də, hələ də heç bir məntiqə sığmayan batil inanclara ümid yeri kimi baxanlar da çoxdur. Körpə uşaqların üzərinə nəzər dəyməsin deyə, göz muncuğu bağlanılması, üzərlik yandırılması, uzaq yola çıxanın arxasınca su atılması və digər inanclar yüz illərdir ki, həyatımızın ayrılmaz hissəsinə çevrilib. Günümüzdə gecə vaxtı saç daramağın, güzgüyə baxmağın, dırnaq kəsməyin, astanada oturmağın, əl barmaqlarını bir-birinə keçirməyin uğursuzluq gətirəcəyinə inananlar da çoxdur.

Yaxşı xatırlayıram, əvvəllər nənəm nəvələrinin qoluna göz muncuğu bağlayardı. Səbəbini soruşanda isə "bu sizi nəzərdən qoruyar", – cavabını alardım. Hələ qohum-əqrəba bizə qonaq gələndə olanları demirəm. Belə ki, qonaqlar biz nəvələrin başına sığal çəkərək nənəmə "Nə mehriban uşaqlardı", – deyərdilər. Onlar getdikdən sonra nənəm üzərlik yandırar:

– A bala, gəlin üzərlikdən iyləyin dərd-bəla sizdən uzaq qaçsın, – deyərdi.



O zamanlar uşaq olduğum üçün nənəmin dediklərinə çox inanırdım. Artıq biz böyümüşük. Ancaq bu gün də nənəmgilə yolum düşəndə yenə üzərlik yandırır, dərd bəla sizdən kənar olsun, – deyir.

Ötən günlərdə işdən evə gedərkən avtobusda iki qadının ucadan söhbətinə təsadüfən qulaq şahidi oldum:

– Övladım dünən nədənsə qorxub, hansı həkimə aparım bilmirəm.

– Həkimə ehtiyac yoxdu, get yeddi qapıda yeddi cəftə tap, o cəftələrdən su axıt, o suyu da apar ver uşağa. Səhər görəcəksən ki, qorxu-filan qalmayıb.

– Hə, bunu mənə hamı məsləhət görür. İş orasındadır ki, indi qapılarda köhnə cəftə qalmayıb. Gərək gedəm kəndə, bəlkə, oradan iki-üç köhnə qapı tapa bildim.

Bəli, gündəlik həyatımızda tez-tez bu cür söhbətlər eşidir, bunlara çox inanan insanlarla qarşılaşırıq. Bəzən bu inanclar aşırı xarakter alır. Məsələn, kimi qarşısına qara pişik çıxıb deyə, narahatlıq keçirir, başqa biri ovucu qaşınır deyə, əlinə pul gələcəyinə ümid edir. Belə inanclara inananlar, əsasən, yaşlı nəslin nümayəndələri olsa da, aralarında gənclər də az deyil.

Ötən günlərdə həmsöhbət olduğum şəhər sakinlərinin fikirləri müxtəlif oldu. Bəziləri belə inanclara boş, mənasız yanaşsalar da, aralarında sınayaraq düz çıxdığını iddia edənlər də var idi. Naxçıvan şəhər sakini, 60 yaşlı Gültəkin Ağəliyeva mövzu ilə bağlı fikirlərini bizimlə bölüşdü:

– Belə inancların bəzilərinə inanıram. Ən çox inandığım üzərlik yandırılmasıdır. Bu inanc nənələrimizdən miras qalıb. Övladlarım, nəvələrim mənə baş çəkməyə gələndə onlar üçün üzərlik yandırar, gedəndə arxalarınca su ataram. Evdə qaşıq yerə düşəndə qonaq gələcəyini, duz töküləndə söz-söhbət olacağını da sınamışam. Bəlkə də, bu sizə qəribə gələ bilər, ancaq çoxu düz çıxıb. Ola bilsin ki, təsadüfi belə alınıb, ancaq bu bir deyil, bir neçə dəfə baş verib. Ona görə də mənim belə hadisələrə inamım böyükdür.

Ötən ay qəbul imtahanında iştirak edən digər bir həmsöhbətim İsmayıl Əliyev deyir ki, hər bir hərəkəti edəndə gərək məntiqlə düşünəsən. Qara pişiyə görə önəmli işlərini təxirə salan insanları heç cür başa düşə bilmirəm. Ancaq bəzi inanclar var ki, mən də riayət edirəm. Tək səbrə inanıram. Səhər evdən çıxanda anam "yaxşı üzü olan" insanla qarşılaşasan deyir. Buna da inanıram. Bir sözlə, bu inanclara inanmaq, əməl etmək bir növ vərdişə çevrilib.

Daha bir həmsöhbətim Sərxan Əliyev düşünür ki, batil inanclara inanmaq heç bir məntiqə sığışmır. Onun dediklərindən:

– Belə inancların əksəriyyəti uşaq yaşlarından böyüklər tərəfindən düşüncəmizə yeridilir. Böyüyəndən sonra isə bu bizdə vərdiş halını alır. Fikrimcə, belə məntiqsiz inanclara ümid etməklə nəyəsə nail olmaq qeyri-mümkündür. Etiraf edim ki, bu günə qədər yerə düşən çəngəlin, qabağımdan keçən pişiyin, yerə tökülən duzun hansısa uğursuzluq gətirəcəyinə inanmıram. Bəlkə də, belə inanclara inanmaq, olmayacaq bir hadisəni ümidlə gözləmək batil inancın yaranmasını şərtləndirir. Günümüzdə bir çox insanların işlərini belə inanclar üzərində qurması absurd görünür və bunun heç bir məntiqi açıqlaması yoxdur. Əgər bir insan bütün həyatını hansısa təsadüfi hadisələr üzərində qurarsa, onda bir çox mənfi hallarla qarşılaşacağı və uğursuzluğa düçar olacağı qaçılmazdır. Mən belə inanclara qətiyyən inanmıram və fürsətdən istifadə edib gənclərə də tövsiyə edirəm ki, gördükləri hər işdə reallığa üstünlük versinlər.

Əgər həyatımızı batil inanclar üzərində qursaq, onda gələcəyimizə inamımız da azalar. Gəlin həyatımızı hansısa əsassız fikrin əsirinə çevirməyək. Öz gücümüzə, ağlımıza, savadımıza inanaq. Batil inancların deyil, həqiqi fikirlərin arxasınca getsək, uğur da bizimlə olacaq.

✍ **Nail ƏSGƏROV**

**İtmişdir**

Quliyev Qulu Behbud oğlunun adına olan 533A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 593